AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

# Lisenziya əldə etmədən qanunsuz fəaliyyət göstərən ödəniş və elektron pul təşkilatları barədə Mərkəzi Bankın məlumatlandırılması üzrə Təlimat

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkədə fəaliyyət göstərən ödəniş təşkilatları və elektron pul təşkilatları Azərbaycan Respublikasının Mərkəzi Bankından müvafiq lisenziya əldə etməlidirlər. Həmin Qanunun 65.1-ci maddəsinə görə Mərkəzi Bank lisenziya almış ödəniş təşkilatları və elektron pul təşkilatının ictimaiyyət üçün açıq olan reyestrini tərtib edir. Beləliklə, hər hansı şəxsin müvafiq fəaliyyət növü üzrə lisenziyasının mövcudluğu Mərkəzi Bankın rəsmi internet səhifəsində dərc olunan ödəniş və elektron pul təşkilatlarının siyahısından (https://www.cbar.az/page-853/electronic-money-institutions) yoxlanıla bilər.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 51.3-cü maddəsinə əsasən Mərkəzi Bank maliyyə bazarlarında lisenziya (icazə) tələb edən fəaliyyətin müvafiq lisenziya (icazə) olmadan göstərilməsi faktını aşkar etdikdə belə fəaliyyətlə məşğul olan şəxslərə bu fəaliyyətin və təqdim edilən xidmətin (məhsulun) reklamının və ya hər hansı digər formada yayımlanmasının dərhal dayandırılması tələbi barədə bildiriş təqdim edir. Mərkəzi Bank bu barədə məlumatı özünün rəsmi internet səhifəsində və mediada açıqlayır, habelə qanunvericiliklə müəyyən edilən tədbirlərin görülməsi üçün aidiyyəti dövlət orqanına (qurumuna) müraciət edir.

Bu baxımdan, lisenziyası olmadan ödəniş və ya elektron pul təşkilatı kimi qanunsuz fəaliyyət göstərən şəxsləri aşkar etdikdə, bu barədə Mərkəzi Banka (https://contact.e-cbar.az/) məlumat verməyiniz xahiş olunur. Məlumat verən şəxs barədə məlumatların konfidensiallığına Mərkəzi Bank təminat verir.

**Banklardan, milli poçt operatorundan və Mərkəzi Bankın internet səhifəsində yerləşən ödəniş təşkilatları və elektron pul təşkilatlarından və onların agentlərindən başqa ödəniş xidməti göstərən təşkilatlar ölkə qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.**

Ödəniş agenti bank, ödəniş təşkilatı və ya elektron pul təşkilatı ilə bağlanmış müqavilə əsasında onun adından çıxış edərək ödəniş xidmətlərini göstərən hüquqi şəxs və ya sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsdir. Ödəniş xidməti təchizatçısı cəlb etdiyi ödəniş agentlərinin ödəniş xidmətləri üzrə fəaliyyətinə görə tam məsuliyyət daşıyır.

Agentin səlahiyyətli olub-olmaması Mərkəzi Bankın internet səhifəsində dərc olunan agentlərin siyahısından yoxlanıla bilər.

**Lisenziyasız qanunsuz fəaliyyət göstərən ödəniş və elektron pul təşkilatları barədə Mərkəzi Bankın məlumatlandırılması qaydası aşağıdakı kimidir:**

1. Mərkəzi Bankın internet səhifəsinə (www.cbar.az) daxil olursunuz və əsas səhifədə “Haqqımızda” bölməsindən “Əlaqə” altbölməsinə keçid edirsiniz.



2. Həmçinin əsas səhifənin ən sonunda “Onlayn müraciət” bölməsinə daxil ola bilərsiniz.




3. Növbəti pəncərədə açılan səhifədə “Digital login” bölməsinə daxil olursunuz.



4. Növbəti açılan səhifədə sistemə daxil olmaq üçün göstərilən hər hansı bir eyniləşdirmə üsulundan istifadə edərək daxil olursunuz.




5. Açılan səhifədə “Yeni müraciət” hissəsini seçirsiniz.



6. Daha sonra açılan səhifədə müraciətinizi qeyd edib “Göndər” düyməsinə sıxırsınız.

